# "Mənim peşəm mənim gələcəyimdir"

Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsi" üzrə icra edilən "Mənim peşəm mənim gələcəyimdir" layihəsi çərçivəsində maarifləndirici seminar keçirilib.

## Layihə çərçivəsində maarifləndirici seminar keçirilib

Seminarda İsmayıllı rayon təhsil ictimaiyyətinin nümayəndələri, layihə rəhbəri Vəfa Vahabova, təlimçi Elnarə Qasımova və İsmayıllı rayon Təzəkənd kənd tam orta məktəbində təhsil alan 30-a yaxın şagird iştirak edib.

İsmayıllı rayon Yeniyol kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Vəfa Vahabova rəhbəri olduğu layihənin məqsədi və layihə çərçivəsində həyata keçirilən işlər barədə ətraflı məlumat verib. Qeyd edilib ki, ənənəvi peşə və sənət sahələrinə marağın artırılması, yeniyetmə və gənclərin peşə seçimində vaxtında doğru qərar verməsi, peşə seçimində əmək bazarının tələblərinə uyğun addımlar atılması kimi hədəf istiqamətlər müəyyən edilib. "Mənim peşəm mənim gələcəyimdir" adlı maarifləndirici flayerlər hazırlanıb və yaxın zamanlarda İsmayıllı rayonunun ümumtəhsil məktəblərinin şagirdləri arasında yayılması nəzərdə tutulub.

Təlimçi Elnarə Qasımova məktəblilərin düzgün peşə seçimi baxımından layihənin vacibliyindən söz açıb. Peşə təhsilinə diqqətin artırılması məqsədi ilə təşkil olunan layihə çərçivəsində orta, orta ixtisas, peşə təhsili üzrə təhsil alanlar üçün peşə təhsilinin əhəmiyyəti, bu sahənin stimullaşdırılması və s. kimi mövzuların müzakirəsinin vacibliyini qeyd edib.

Seminarda iştirak edən müəllimlər və şagirdlərlə mövzu ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, maarifləndirici flayerlər paylanıb.